**“Nəqliyyat haqqında”, “Aviasiya haqqında”, “Avtomobil nəqliyyatı haqqında” və “Dəniz limanları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1588-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** “Nəqliyyat haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 7, maddə 399; 2000, 7, maddə 486; 2001, 12, maddə 731; 2002, 5, maddə 241; 2008, 11, maddə 957; 2011, 7, maddə 610; 2014, 4, maddə 335; 2017, 12 (I kitab), maddə 2212; 2019, 6, maddə 988) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci maddənin dördüncü abzasında “ödəniş və ya muzdla” sözləri “haqq müqabilində” sözləri ilə və “hüququ və ya başqa qanuni əsaslarla” sözləri “və ya istifadə hüququ ilə” sözləri ilə əvəz edilsin;

1.2. 9-cu maddənin 3-cü hissəsinin birinci abzasına “yükgöndərən” sözündən sonra “və ya onun səlahiyyətləndirdiyi digər şəxs” sözləri əlavə edilsin;

1.3. 19-cu maddəyə aşağıdakı məzmunda 3-cü hissə əlavə edilsin:

“3. Nəqliyyat-ekspedisiya xidmətləri ilə əlaqədar ekspeditora qarşı yaranan tələblər üzrə iddia qaldırılması Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 861.2-ci maddəsinə uyğun həyata keçirilir.”.

**Maddə 2.** “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, 8, maddə 689; 2007, 12, maddə 1218; 2009, 12, maddə 948; 2011, 3, maddə 169; 2015, 1, maddə 10, 2, maddə 95; 2016, 10, maddə 1604; 2017, 3, maddə 338, 5, maddə 693; 2018, 10, maddə 1960, 12 (I kitab), maddə 2514; 2019, 6, maddə 989) aşağıdakı məzmunda 48.5-1-ci maddə əlavə edilsin:

“48.5-1. Yükgöndərən daşıma müqaviləsinin lazımınca icrası üçün yükə aid olan sənədləri və digər məlumatları daşıyıcıya təqdim etməlidir. Yükgöndərən bu məlumatların və sənədlərin olmaması və dəqiqsizliyi nəticəsində dəyən zərərin əvəzini ödəyir.”.

**Maddə 3.** “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, 7, maddə 599; 2010, 4, maddə 276, 10, maddə 841; 2013, 11, maddə 1302; 2014, 4, maddə 342; 2015, 8, maddə 903, 12, maddə 1439; 2016, 2 (II kitab), maddə 221; 2017, 2, maddə 140, 12 (I kitab), maddə 2211; 2018, 1, maddə 22, 12 (I kitab), maddələr 2510, 2517; 2019, 3, maddə 374, 8, maddə 1379) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.0.9-cu maddəyə “əsaslarla” sözündən sonra “haqq müqabilində” sözləri, “yerinə yetirən” sözlərindən sonra “, mülkiyyət, icarə və ya istifadə hüququ ilə nəqliyyat vasitələrinə malik olan” sözləri əlavə edilsin;

3.2. 14-cü maddə üzrə:

3.2.1. 14.1.2-ci maddədə “hüququ və ya digər qanuni əsaslarla” sözləri “, icarə və ya istifadə hüququ ilə” sözləri ilə əvəz edilsin;

3.2.2. 14.2.4-cü maddədə “və digər qanuni əsaslarla sərəncamında” sözləri “, icarəsində və ya istifadəsində” sözləri ilə əvəz edilsin;

3.2.3. 14.2.5-ci maddədə “və digər qanuni əsaslarla istifadə (icarə, etibarnamə və s.)” sözləri “, icarə və ya istifadə” sözləri ilə əvəz edilsin;

3.3. 27.2-ci maddədə “və ya digər qanuni əsaslarla istifadəsində (icarə, etibarnamə və s.)” sözləri “, icarəsində və ya istifadəsində” sözləri ilə əvəz edilsin;

3.4. 37.1-ci maddəyə “təyinat məntəqəsinə” sözlərindən əvvəl “haqq müqabilində olduğu yerdən” sözləri əlavə edilsin və həmin maddədə “yükgöndərən isə, müqavilədə başqa hal nəzərdə tutulmamışdırsa,” sözləri “yükgöndərən, yükalan və ya onların səlahiyyətləndirdiyi digər şəxs isə” sözləri ilə əvəz edilsin;

3.5. 58.1-ci maddəyə “əvvəl” sözündən sonra “Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 861-ci maddəsi,” sözləri əlavə edilsin.

**Maddə 4.** “Dəniz limanları haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, 5, maddə 464; 2019, 6, maddə 990) 3.1.21-ci maddəsinə “əsaslarla” sözündən sonra “haqq müqabilində” sözləri, “yerinə yetirən” sözlərindən sonra “, mülkiyyət, icarə və ya istifadə hüququ ilə nəqliyyat vasitələrinə malik olan” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 aprel 2020-ci il
60-VIQD